# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1197-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 232 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 11 aprel tarixli 2099 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 188 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 779; 2020, № 11, maddə 1408; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 19 iyul tarixli 233 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dezoksiribonuklein turşusu (DNT) analizinin aparılması üçün bioloji materialın götürülməsi, onun uçotu, saxlanılması, istifadəsi, verilməsi və məhv edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.3.2-ci yarımbəndə “DİN-in kriminalistika xidmətinin əməkdaşı” sözlərindən sonra “(bu Qaydanın 2.3.3-cü yarımbəndində göstərilənlər istisna olmaqla)” sözləri əlavə edilsin.

2. 2.3.2-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.3.3-cü yarımbənd əlavə edilsin:

“2.3.3. Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, o cümlədən ərazilərin işğaldan azad olunması dövründə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarından (bioloji valideynlərdən və ya övladları ilə birlikdə ər-arvaddan) bioloji material məhkəmə, əməliyyat-axtarış fəaliyyətini, təhqiqat və ya istintaqı həyata keçirən orqanların qərarına əsasən Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (bundan sonra – DTX) əməkdaşı tərəfindən.”.

3. 2.4-cü bəndə “əməkdaşı” sözündən sonra “, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində aşkar edilmiş naməlum meyitlərin müayinəsi zamanı isə DTX-nin əməkdaşı” sözləri əlavə edilsin.

4. 2.9-cu bəndə “DİN Kriminalistik Tədqiqatlar İdarəsinə” sözlərindən sonra “(bu Qaydanın 2.9-1-ci bəndində göstərilənlər istisna olmaqla)” sözləri əlavə edilsin.

5. Aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

“2.9-1. Azərbaycan Respublikasına qarşı hərbi təcavüz nəticəsində, o cümlədən ərazilərin işğaldan azad olunması dövründə xəbərsiz itkin düşmüş şəxslərin bioloji qohumlarından (bioloji valideynlərdən və ya övladları ilə birlikdə ər-arvaddan) və işğaldan azad olunmuş ərazilərdə aşkar edilmiş naməlum meyitlərdən müvafiq qaydada götürülmüş bioloji material və məlumat DNT analizinin aparılması, DNT profilinin əldə olunması və DNT Məlumat Bankında saxlanılması üçün DTX-nin Hərbi-tibb baş idarəsinə göndərilir.”.

6. 2.11.3-cü yarımbənddə “və ya DİN” sözləri “, DİN və ya DTX” sözləri ilə əvəz edilsin.

7. 3.1-ci bəndə “İdarəsində” sözündən sonra “, bu Qaydanın 2.9-1-ci bəndində nəzərdə tutulmuş hallarda isə DTX-nin Hərbi-tibb baş idarəsində” sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 sentyabr 2023-cü il

№ 311